**“Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltik istehsalının inkişaf etdirilməsi, əhalinin bu məhsula tələbatının ödənilməsi, emal müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 fevral 2018-ci il
3657

Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün**

# DÖVLƏT PROQRAMI

## 1. Giriş

Qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafının təmin edilməsi, kənd əhalisinin sosial rifahının yaxşılaşdırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi ölkədə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir.

Son illər kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişafı, əhalinin düyüyə olan tələbatının ödənilməsi və çəltik istehsalının artırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

“Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq, ölkəmizdə çəltikçiliyin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, çəltik istehsalına marağın artırılması məqsədi ilə “Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

## 2. Azərbaycanda çəltikçiliyin mövcud vəziyyəti

Azərbaycanda çəltik bitkisi qədimdən becərilir. Ölkəmizin ərazisində keyfiyyəti ilə müxtəlif müsabiqələrdə dəfələrlə fərqlənmiş “Ağ ənbərbu”, “Vilgəri”, “Yetim”, “Lənkəran sədrisi”, “Ağ qılçıqlı” və digər yerli sortlar becərilmişdir. İqtisadi şəraitlə əlaqədar olaraq ölkəmizdə çəltiyin əkin sahəsi illər üzrə müxtəlif olmuşdur. Çəltik sahəsi 1913-cü ildə 47 min hektar, 1927-ci ildə 54 min hektar, 1937-ci ildə 25,3 min hektar,1964-cü ildə 12,3 min hektar təşkil etmiş, sonradan tərəvəzçiliyin inkişafı ilə əlaqədar 1,8 min hektara qədər azalmışdır. Yalnız 1995-ci ildən başlayaraq çəltik əkinləri genişlənmiş, 1996-cı ildə 2,4 min hektar sahədə çəltik əkilmiş, orta məhsuldarlıq 38,7 sentner (s/ha) olmuşdur. Hazırda Azərbaycanda çəltik əkinçiliyi əsasən *Lənkəran–Astara, Mərkəzi Aran, Mil–Muğan və Şirvan–Salyan* iqtisadi rayonlarında aparılır.[1]

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 3004 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində ölkə ərazisinin müxtəlif regionlarında dənli və dənli-paxlalı bitkilərin, o cümlədən çəltikçiliyin inkişaf etdirilməsi ilə bağlı tədbirlər nəzərdə tutulmuş və bu istiqamətdə müvafiq işlər həyata keçirilmişdir. “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamına əsasən buğda və çəltik əkini sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına hər hektar üçün 90 manat yardım verilməsi, həmçinin son illər kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən digər tədbirlər istehsalçılarda bu sahəyə marağı artırmışdır.

2016-cı ildə 2,5 min hektarda çəltik əkilmiş və 5,6 min ton məhsul yığılmışdır. 2017-ci ildə isə çəltiyin əkin sahəsi əvvəlki illə müqayisədə 2 dəfədən çox artaraq 5,1 min hektara çatdırılmış, ölkə üzrə 15,9 min ton məhsul toplanmış və orta məhsuldarlıq 31,1 s/ha olmuşdur. Lakin ölkənin düyüyə illik tələbatı 40 min tondan yuxarıdır və onun böyük bir hissəsi idxal hesabına təmin olunur. Bu baxımdan Dövlət Proqramının çəltikçiliyin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin daha da gücləndirilməsinə və bu sahənin inkişafına mühüm təkan verəcəyi gözlənilir.

## 3. Dünyada çəltikçiliyin inkişaf meyilləri

Ən qədim dənli bitkilərdən hesab olunan çəltiyin vətəni Çin və Hindistandır. Çəltiyin Cənub-Şərqi Asiyada becərilmə tarixi yeddi min ilə çatır və eramızdan əvvəl X-V əsrlərdə Çin və Hindistandan Mesopotamiya, İran, Suriya və Orta Asiyaya yayılmışdır.

Dünya üzrə dənli bitkilərin əkin strukturunda və insanların qida rasionunda düyü buğdadan sonra ikinci yeri tutur. Düyüyə tələbat ilbəil artım dinamikasına malik olduğundan, çəltik istehsalı kənd təsərrüfatının ən perspektivli sahələrindən biridir.

Dünya üzrə ümumi taxıl əkinlərinin təxminən 1/5 hissəsi çəltik əkinlərinin payına düşür. 2015-ci ilin məlumatına əsasən çəltiyin əkin sahəsi 163,5 milyon hektar, orta məhsuldarlıq isə 46 s/ha təşkil etmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarına görə, 2013-2016-cı illərdə dünya üzrə təmizlənmiş çəkidə düyü istehsalı 490-501 milyon ton, istehlak 484-503 milyon ton arasında dəyişmiş, həmin illərdə ilin sonuna düyü qalığı 166-170 milyon ton olmuşdur.

Dünya üzrə çəltik istehsalının 50%-i Çin və Hindistanın payına düşür. Əsas çəltik istehsalçıları Çin, Hindistan, İndoneziya, Banqladeş, Vyetnam, Tailand, Myanma, Filippin, Braziliya, Yaponiya və ABŞ hesab edilir. Hindistan 2015-ci ildə çəltik əkin sahəsinə görə birinci yeri tutmasına baxmayaraq (42,8 mln. ha), Çin yüksək məhsuldarlıq hesabına məhsul istehsalına görə birincidir (208,2 mln. ton), sonrakı yerləri Hindistan, İndoneziya və Banqladeş tutur. Məhsuldarlıq isə Avstraliya (102 s/ha), Misir (95 s/ha), ABŞ (86 s/ha) və Türkiyədə (81 s/ha) daha yüksəkdir.

Düyünün illik ticarət həcmi 40 milyon tondan çoxdur. Dünya bazarına ən çox düyü məhsulunu Hindistan (10 milyon tondan çox) ixrac edir. Ümumilikdə isə düyü ixracının təxminən 80%-i Hindistan, Tailand, Vyetnam, ABŞ və Pakistanın payına düşür. Ən iri düyü idxalçısı isə Çindir.

## 4. Dövlət Proqramının məqsədi və vəzifələri

4.1. Dövlət Proqramının məqsədi ölkə əhalisinin düyüyə olan tələbatının daha dolğun ödənilməsi, idxalın əvəzlənməsi, çəltik emalı sənayesinin inkişaf etdirilməsi və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə çəltikçilik sahəsinin inkişafını stimullaşdırmaqdan ibarətdir.

4.2. Həmin məqsədə nail olunması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

4.2.1. çəltik əkini sahələrinin genişləndirilməsi və çəltiyin məhsuldarlığının artırılması;

4.2.2. çəltikçilik sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

4.2.3. çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı, yerli və rayonlaşdırılmış sortlarının toxumçuluq təsərrüfatlarının yaradılmasının dəstəklənməsi;

4.2.4. çəltikçiliyin infrastruktur təminatının yaxşılaşdırılması;

4.2.5. çəltik istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsi;

4.2.6. çəltik emalı müəssisələrinin yaradılmasının təşviqi;

4.2.7. düyü məhsulunun rəqabət qabiliyyətliliyinin artırılması, ixracının təşviqi;

4.2.8. düyü məhsulu üzrə idxalın əvəzlənməsi səviyyəsinin yüksəldilməsi;

4.2.9. çəltikçilik sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi.

5. Çəltikçiliyin inkişafının əsas istiqamətləri

## 5.0. Azərbaycanda çəltikçiliyin inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

5.0.1. rayonlar üzrə çəltiyin optimal əkin sahələrinin müəyyənləşdirilməsi;

5.0.2. intensiv becərmə və mühəndis-suvarma texnologiyalarının tətbiqi hesabına çəltik istehsalının artırılması, bu sahədə yüksək səmərəliliyin təmin edilməsi;

5.0.3. çəltikçiliyin müasir texnika və texnoloji avadanlıqlarla təminatının yaxşılaşdırılması;

5.0.4. çəltikçilikdə növbəli əkin sisteminin tətbiq edilməsi;

5.0.5. yüksək məhsuldar yerli və rayonlaşdırılmış xarici çəltik sortlarının keyfiyyətli toxumlarından istifadə edilməsi;

5.0.6. çəltikçilik sahəsində fitosanitar və informasiya-məsləhət xidmətlərinin gücləndirilməsi;

5.0.7. emal potensialının gücləndirilməsi.

## 6. Dövlət Proqramının maliyyələşmə mənbələri

6.0. Dövlət Proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

6.0.1. dövlət büdcəsi;

6.0.2. büdcədənkənar fondlar;

6.0.3. Azərbaycan Respublikasının *Sahibkarlığın İnkişafı* Fondu, “Azərbaycan İnvestisiya Şirkəti” ASC, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Kredit və İnkişaf Agentliyinin* vəsaitləri;[2]

6.0.4. yerli və xarici investisiyalar;

6.0.5. qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

## 7. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

7.1. Dövlət Proqramının həyata keçirilməsi Azərbaycanda çəltikçilik ənənələrinin qorunaraq inkişaf etdirilməsinə, düyü ilə özünütəminetmə səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə, idxaldan asılılığın azaldılmasına, çəltikçilik rayonlarında yaşayan əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təsir göstərməklə ölkənin aqrar potensialını gücləndirəcəkdir.

7.2. Dövlət Proqramının icrası nəticəsində 2025-ci ildə orta məhsuldarlıq 40,0 s/ha olmaqla çəltik əkini sahələri 10 min hektara, istehsalın həcmi 40 min tona çatdırılacaqdır.

## 8. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| Sıra -si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| **8.1. Çəltikçiliyin inkişafı üzrə institusional tədbirlər** | | | |
| 8.1.1. | Çəltikçilik sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | 2018 – 2019 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi |
| 8.1.2. | Çəltik bitkisinin əkildiyi rayonlar (zonalar) üzrə məlumat bankının yaradılması | 2018 – 2019 | Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları |
| 8.1.3. | Çəltik məhsullarının istehsalı sahəsində mütərəqqi təcrübəyə malik xarici şirkətlərlə əlaqələrin genişləndirilməsi | 2018 – 2019 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi |
| 8.1.4. | Çəltik istehsalı sahəsində sığorta mexanizminin təkmilləşdirilməsi | 2018 – 2019 | Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 8.1.5. | Çəltik istehsalı üçün əkinəyararlı torpaqların müəyyən olunması və təsərrüfat subyektlərinə verilməsinin təmin olunması | 2018 – 2025 | *İqtisadiyyat Nazirliyi*, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC, yerli icra hakimiyyəti orqanları[3] |
| **8.2. Çəltikçilik sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi** | | | |
| 8.2.1. | Çəltikçilik sahəsində fəaliyyət göstərən elmi tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi | 2018 – 2021 | Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi |
| 8.2.2. | Elmi tədqiqat müəssisələri ilə çəltik istehsalçıları arasında əməkdaşlığın gücləndirilməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi*, yerli icra hakimiyyəti orqanları[4] |
| 8.2.3. | Çəltikçilik sahəsində kadrların hazırlanması, xarici ölkələrlə təcrübə mübadiləsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi*[5] |
| 8.2.4. | Çəltiyin seleksiyasına dair tədqiqat işlərinin gücləndirilməsi, yeni sortların öyrənilməsi, yüksək məhsuldar yerli və rayonlaşdırılmış xarici çəltik sortlarının reproduksiyalı toxum istehsalının təşkili | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi* |

| | | | |
|---|---|---|---|
| 8.2.5. | Çəltik istehsalı və emalı sahəsində elmi-texniki nailiyyətlərin yayılması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi*, Elmin İnkişafı Fondu |
| **8.3. Çəltikçiliyin infrastruktur təminatının yaxşılaşdırılması** | | | |
| 8.3.1. | Çəltik əkini sahələrinin su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, su təsərrüfatı obyektlərinin təmir-bərpası, yenidən qurulması və tikintisi (Əyriçay su anbarının tikintisinin davam etdirilməsi, Əlicançay su anbarı və digərlərinin tikilməsi) | 2018 – 2025 | “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 8.3.2. | Çəltik emalı müəssisələrinin elektrik, qaz, su ilə təchizatı və digər infrastruktur sistemlərinə qoşulması üzrə tədbirlərin həyata keçirilməsi | 2018 – 2025 | “Azərişıq” ASC, “Azərsu” ASC, Dövlət Neft Şirkəti, yerli icra hakimiyyəti orqanları |
| **8.4. Çəltikçilik sahəsində dövlət dəstəyi tədbirləri** | | | |
| 8.4.1. | Mütərəqqi texnologiyaların tətbiqi ilə iri çəltikçilik təsərrüfatlarının yaradılmasının dəstəklənməsi | 2018 – 2025 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 8.4.2. | Çəltikçiliyin müasir texnika və avadanlıqlarla təminatının gücləndirilməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi |
| 8.4.3. | Çəltik istehsalçılarının gübrə və bitki mühafizə vasitələri ilə təminatının yaxşılaşdırılması | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi |
| 8.4.4. | Çəltiyin emalı və qablaşdırılmasını həyata keçirən emal müəssisələrinin yaradılmasının dəstəklənməsi | 2018 – 2025 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 8.4.5. | Çəltik əkilən sahələrin hamarlanmasına, läklərin düzəldilməsinə və istifadə edilən suya əlavə dəstək göstərilməsi imkanlarının araşdırılması | 2018 – 2019 | Kənd Təsərrüfatı Nazirliyi, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi |
| 8.4.6. | Çəltikçilik sahəsində fəaliyyət göstərən istehsalçılara informasiya-məsləhət xidmətləri göstərilməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi* |
| **8.5. Çəltikçilik sahəsində marketinq fəaliyyətinin gücləndirilməsi** | | | |
| 8.5.1. | Çəltikçilik üzrə ölkə və beynəlxalq əhəmiyyətli sərgi, yarmarka, konfranslarda iştirak, qabaqcıl nailiyyətlərə görə mükafatlandırma və digər tədbirlərin həyata keçirilməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları |

| | | | |
|---|---|---|---|
| 8.5.2. | Çəltik istehsalı, emalı və ixracı ilə məşğul olan yerli şirkətlər barədə məlumatların Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası üzrə portalda yerləşdirilməsi və mütəmadi olaraq yenilənməsi | 2018 – 2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 noyabr 2018-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2287**)
2. 21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**)
3. 16 noyabr 2021-ci il tarixli **2998** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 17 noyabr 2021-ci il, 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1235**)
4. 2 avqust 2022-ci il tarixli **3400** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 avqust 2022-ci il, 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 901**)
5. 3 mart 2023-cü il tarixli **3780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 389**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 noyabr 2021-ci il tarixli **2998** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 17 noyabr 2021-ci il, 248, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1235**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 2-ci hissəsinin birinci abzasının altıncı cümləsində "**Lənkəran və Aran**" sözləri "**Lənkəran–Astara, Mərkəzi Aran, Mil–Muğan və Şirvan–Salyan**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 noyabr 2018-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2287**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "**Sahibkarlığa Kömək Milli**" sözləri "**Sahibkarlığın İnkişafı**" sözləri ilə əvəz edilmişdir.

21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "**Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin** " sözləri "**Aqrar Kredit və İnkişaf Agentliyinin** " sözləri ilə əvəz edilmişdir.

[3] 2 avqust 2022-ci il tarixli **3400** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 avqust 2022-ci il, 162, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 901**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 8.1.5-ci yarımbəndinin "İcraçılar" sütununda "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri "**İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[4] 3 mart 2023-cü il tarixli **3780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 389**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 8.2.2-ci, 8.2.4-cü, 8.2.5-ci və 8.4.6-cı yarımbəndlərin "İcraçılar" sütununda "**Azərbaycan Milli Elmlər Akademiyası**" sözləri "**Elm və Təhsil Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[5] 3 mart 2023-cü il tarixli **3780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 389**) ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 8.2.3-cü yarımbəndin "İcraçılar" sütununda "**Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası**" sözləri "**Elm və Təhsil Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.